# Yunus Oğuzun “Cığır” tarixi romanı dövlət mükafatına təqdim olunub



Yazıçı-publisist Yunus Oğuzun "Cığır" tarixi romanının aktuallığı, gənclər arasında vətənpərvərliyin və 44 günlük Vətən müharibəsinin təbliği, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasının inkişafındakı əhəmiyyəti nəzərə alınaraq Dövlət mükafatına təqdim edilməsi üçün Azərbaycan Respublikasının Elm, Mədəniyyət və Ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasına namizədliyi irəli sürülüb. "Cığır" tarixi romanının Dövlət mükafatına layiq görülməsi üçün namizədliyinin irəli sürülməsi Azərbaycan Atatürk Mərkəzi tərəfindən məqsədəuyğun hesab edilib.

Xatırladaq ki, yazıçı-publisist Yunus Oğuzun Şuşa şəhərinin inşa edilməsinin 270 illiyinə və 44 günlük Vətən müharibəsinə ithaf olunmuş "Cığır" tarixi romanında Pənahəli xanın Şuşa qalasını inşa etməsi, Şuşa qalasına

gedən cığırın tədqiq edilərək üzə çıxarılması, ermənilərin tarixin müxtəlif dövrlərində Şuşanı, eləcə də Şuşa qalasını ələ keçirmək üçün məkrli planlar qurması, eyni zamanda Qarabağın incisi sayılan Şuşa şəhərinin ermənilər tərəfindən işğal edilməsi hadisələri tarixi xronoloji ardıcıllıqla verilib. Romanda yazıçı Aprel döyüşləri və 44 günlük Vətən müharibəsinə gedən yol, həmçinin ərazilərimizin Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilməsi kimi tarixi anlar, zəfər tarixi də geniş və ətraflı şəkildə oxuculara çatdırılıb. Əsərdə yazıçı Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan xalqının mərd, mübariz, döyüşkən ruhunu ortaya qoyub və Ali Baş Komandan İlham Əliyev obrazını yaradaraq onun Müzəffər Ordusunun uğurlu əməliyyatı nəticəsində torpaqlarımızın işğaldan azad edildiyini diqqətə çatdırıb.

Qeyd edək ki, "Cığır" romanının Dövlət mükafatına namizədliyi qəbul edilib.




**Azerbaycan-ruznamesi.org**